Yaxşılıq - gözəl əxlaqdır. Günah isə qəlbini narahat edən və insanların bilməsini xoşlamadığın şeydir

Nəvvas bin Simən əl-Ənsari (Allah ondan razı olsun) rəvayət edir ki: Mən Allah Rəsulundan (sallallahu aleyhi və səlləm) yaxşılıq və günah barəsində soruşdum. Allahın Rəsulu (sallallahu aleyhi və səlləm) belə dedi: "Yaxşılıq - gözəl əxlaqdır. Günah isə qəlbini narahat edən və insanların bilməsini xoşlamadığın şeydir".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) yaxşılıq və günah barəsində soruşuldu. Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə cavab verdi: Yaxşılığın ən əzəmətli xisləti, təqva ilə Allahla olan gözəl əxlaqdır. İnsanlarla gözəl əxlaqa gəldikdə isə bu, onlardan gələn əziyyətlərə səbr etmək, az qəzəblənmək, insalara təbəssüm etmək, gözəl sözlər danışmaq, qohumluq əlaqələrini saxlamaq, Uca Allaha itaət etmək, nəzakətli olmaq, insanlara yaxşılıq etmək və ailə və dostlarla gözəl münasibətdə olmaqdır. Amma günah isə şübhəli şeylərdən qəlbi narahat edən, insanın ürəyində şəkk və tərəddüd yaradan, elə ki onun köküsü bu iş üçün açılıb genişlənmir, həmçinin onun günah olmasından qorxulan və onun görkəmli şəxslərə, nümunəvi və yüksək əxlaqa sahib olan insanlara çirkin olduğundan dolayı üzə çıxmasını istəmədiyin şeydir. Çünki nəfs, təbiəti etibarı ilə insanların onun xeyirini görməsini sevir. Əgər o, insanların onun bəzi əməllərini bilməsini istəmirsə, demək ki, bu əməllər günahdır və onda heç bir xeyir yoxdur.

http://sunnah.global/hadeeth/az/show/4308